# Baş nazir Əli Əsədov Ukraynanın Baş nazirini Müstəqillik Günü münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Ukraynanın Baş naziri Denis Şmıqala ölkəsinin Müstəqillik Günü münasibətilə təbrik məktubu ünvanlayıb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məktubda Azərbaycan və Ukrayna xalqları arasında əsrlərdən bəri davam edən dostluq və əməkdaşlıq ənənələrinin mövcud olduğu vurğulanıb. Qeyd olunub ki, məhz bu möhkəm təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur.

Azərbaycan-Ukrayna ənənəvi dostluq münasibətlərinin və səmərəli əməkdaşlığının xalqlarımızın və ölkələrimizin mənafelərinə uyğun olaraq bundan sonra da müvəffəqiyyətlə inkişaf edəcəyinə və genişlənəcəyinə əminlik ifadə olunub.

---

Azərbaycan. - 2023.- 25 avqust.- S.2.